# "Hökmdarın taleyi" üzərində iş sona yaxınlaşır

## İLİN SONUNA KİMİ HAZIR OLACAQ BƏDİİ FİLMİN NÜMAYİŞİ ÜÇÜN MÜRACİƏT EDƏN TÜRKİYƏ VƏ RUSİYA TELEKANALLARI İLƏ DANIŞIQLAR APARILIR

**Mərhum prezident Heydər Əliyevin 2000-ci ildə imzaladığı sərəncama əsasən, xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" faciəsi əsasında xalq yazıçısı Elçinin "Hökmdarın taleyi" adı ilə ssenariləşdirdiyi filmin çəkilişlərinə 2005-ci ildə start verilib. Quruluşu üzərində Ramiz Fətəliyev, Fəxrəddin Manafov və Dilşad Fatxulinin çalışdığı filmin baş prodüseri Vaqif Əsədullayev, bəstəkarı isə Polad Bülbüloğludur. Filmlə bağlı bir çox məqamlara "A.S.V.A Profi Studia XXI" Prodüser Mərkəzinin və filmin baş prodüseri Vaqif Əsədullayev, baş rolun – İbrahimxəlil xanın ifaçısı, yaradıcı heyətdəki gənc aktyorlar üçün ustad dərsləri aparan, xalq artisti Fəxrəddin Manafovun APA-ya eksklüziv müsahibəsində aydınlıq gətirilir.**




**V.ƏSƏDULLAYEV:** – 2005-ci ildə sabiq mədəniyyət naziri Polad Bülbüloğlu filmin "A.S.V.A Profi Studia XXI" Prodüser Mərkəzində hazırlanması üçün mənə müraciət etdi. Mən də bu filmi hazırlamağa məmnuniyyətlə razılıq verdim. Elə həmin il Fəxrəddin Manafovla birgə filmin hazırlıq işlərinə başladıq. Filmə bütün gücümüzü sərf etmişik, düşüncələrimizi ekrana köçürmüşük. Filmdəki müəyyən dövrü Ramiz Fətəliyevlə birgə işlədik, ancaq yaradıcılıq düşüncələrimiz fərqləndiyindən ayrılmalı olduq. Bu, işə heç bir mənfi təsir göstərmədi.

***– Sizi Ramiz Fətəliyevi filmə cəlb etməyə nə vadar etdi?***

**F.MANAFOV:** – Kino sahəsində çalışan hər bir sənətkar bilir ki, əgər filmi çəkirsənsə həmin filmin ilk günündən orada olmalısan və sənin ideyan, konsepsiyan olmalıdır. Sən bilməlisən ki, nəyə görə bu əsərin üzərində işləyirsən və sonuc nə olacaq. Konsepsiya olmayan hər bir sənət, hər bir ədəbi yazı heç nədir. Bu baxımdan Vaqif Əsədullayev və mən artıq qoyulmuş konsepsiyaya istinad edərək Ramiz Fətəliyevə müraciət etdik. Birincisi, Ramiz Fətəliyevlə neçə illərdir çiyin-çiyinə bu sənətdə çalışırıq, həm də dostuq. Biz Ramiz Fətəliyevi filmə dəvət etməyə məcbur deyildik, sadəcə buna ehtiyacımız var idi. Çünki hər respublikada Ramiz Fətəliyev yoxdur, o çox böyük sənətkardır. Mən aktyoram, rejissor deyiləm, ancaq ola bilər ki, mənim içimdə bu istək var və bunu açıq deyirəm. Mənə elə gəlir ki, nəyəsə qadirəm və nəyisə təkbaşına edə bilərəm. Ramiz Fətəliyev razılıq verdi, hətta mən sevincdən ağlamsındım. Çox sevindik ki, üç dost, üç professional bir yerdə çalışacağıq və çox təəssüflər olsun ki, sonu belə oldu.

***– Rusiyadan Dilşad Fatxulini quruluşçu operator kimi dəvət etmək nə dərəcədə zəruri idi?***

**V.ƏSƏDULLAYEV:** – Film üçün bizim professional kino xadiminə, ən vacibi bugünkü texnologiyanı bilən, bilik və səriştəsi olan bir insana ehtiyacımız vardı. Bizə məhz onun kimi professional lazım idi.

***– Çəkiliş müddətində Fatxulinlə bağlı bir problem olmadı ki?***

**F.MANAFOV:** Mən Dilşad Fatxulinlə 1984-cü ildən tanışam. O, son dərəcə kübar bir insandır. Heç ağlıma gətirə bilmirəm ki, onun düşməni var. Belə bir insanın heç kəslə problemi ola bilməz. Onunla çiyin-çiyinə çalışmaq, məsləhətlərinə qulaq asmaq çox böyük xoşbəxtlikdir.

***– Bu filmi Sizin sənət fəaliyyətinizdə yenilik hesab etmək olarmı?***

**F.MANAFOV:** – Mənim üçün bu film çox vacib və dəyərlidir. Bəlkə də bu film həyatımda ən vacib işlərdən biridir. İlk növbədə ona görə ki, 50 yaşıma qədəm qoyanda bu filmlə məşğul idim. İkincisi, bu film mənim ana Vətənim olan Qarabağ haqqındadır. Mən Xankəndidə anadan olmuşam. Eyni zamanda, mən bu sənəti dəlicəsinə sevirəm. Bu sənətə həyatımı həsr etmişəm və yəqin ki, ömrümün sonuna kimi də belə olacaq. Digər tərəfdən, bu mənim sənət həyatım boyu çəkildiyim ilk tarixi filmdir.

***– Çəkilişləri nə zaman bitirmisiniz?***

**V.ƏSƏDULLAYEV:** 2006-cı il oktyabrın 3-də çəkilişləri yekunlaşdırdıq. Filmin çəkilişində bizə Nazirlər Kabineti, Müdafiə Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, şəxsən baş nazirin müavini Elçin Əfəndiyev və nazir Əbülfəs Qarayev yaxından kömək ediblər. Kömək üçün kimə müraciət edirdiksə, hər biri məmnuniyyətlə bizə yardım göstərirdi. Bütün texniki avadanlıqlar, eləcə də işıq və səs avadanlıqları Moskvadan gətirilib. İlk növbədə ssenarinin çox güclü və yüksək səviyyədə olduğunu qeyd etmək lazımdır. Artıq filmə Elçin, Əbülfəs Qarayev, Polad Bülbüloğlu və başqaları baxıb, yüksək qiymətləndiriblər. Onu da deyim ki, biz çəkilişləri bitirəndən sonra kütləvi səhnələrdə istifadə olunan geyimlər, silahlar, təmənnasız olaraq, "Cavad xan" filminin çəkilişi üçün verilib.

***– İndi film üzərində işin hansı mərhələsindəsiniz?***

**V.ƏSƏDULLAYEV:** – Montajı bitirmişik. Avqustun sonlarında isə filmin səsləndirilməsinə başlamalıyıq. Azərbaycan dilində kiçik rollar Bakıda, əsas rollar isə "Mosfilm"in nəzdində fəaliyyət göstərən "Ton studio"da səsləndiriləcək. Hazırda biz filmin surətinin çıxarılması üçün Çexiyanın "Barrandov" və Almaniyanın tanınmış bir kino şirkəti ilə danışıqlar aparırıq. Film Azərbaycanda bu günə kimi istifadə edilməyən dolbi 1/5 sistemində səsləndiriləcək. Bu ilin dekabrına kimi filmi hazır edəcəyik. Post-prodakşn "Mosfilm"də və "RBS" kinokampaniyasında keçiriləcək. Ondan sonra film böyük ekranlara çıxacaq. Artıq bu filmi nümayiş etdirmək üçün Rusiya və Türkiyənin mədəniyyət kanalları bizə müraciət ediblər, hazırda danışıqlar gedir.

***– Bəs premyera harada olacaq?***

**V.ƏSƏDULLAYEV:** – Premyera Bakıda keçiriləcək.